# Yolumuz Qarabağadır...

**İki ilə yaxındır ki, o dəhşətli günlərdən uzaqlaşmışıq. Hər dəfə yadımıza düşdükcə... Sanki bütün hadisələr indicə baş verir. 2020- ci il sentyabrın 26-da dostumuz bizi Füzuli rayonuna, övladının məcburi köçkünlər üçün salınmış qəsəbədə keçirilən toyuna dəvət etmişdi. Bakıdan dostlarla birlikdə getmişdik. Çoxdan idi ki, bu qəsəbədə toy olmurdu. Musiqi sədaları dağlara yayılmışdı. Sanki ermənilərə acıq verirdik. Gecə saat 12-də şənliyin, necə deyərlər, vur-çatlasın yerində qəflətən aləm bir-birinə dəydi. Kimsə təngnəfəs gəlib dedi ki, müharibə başlandı. Birdən-birə musiqi kəsildi. Yarım saat sonra həyətdə toy sahibi ilə Bakıdan gedən qonaqlardan savayı, kimsə yox idi. Toy sahibi dedi ki, kim hara qaçır, kim harda gizlənir, özü bilər. Mən ailə üzvlərimlə birlikdə evimizdə qalacağıq. Sonra da əlinə balta götürüb dedi ki, bir erməni bu tərəflərə gələ bilməz, doğrayaram onu.**

Biz də gecəni ev sahibi ilə birlikdə keçirdik. Səhər saat altıda raketlərin, ağır artilleriyanın, helikopterin, avtomatların səsinə oyandıq. Aləm bir-birinə qarışmışdı. Uğultudan qulaq tutulurdu. Dostumuza dedik ki, ailə üzvlərini də götür, qəsəbədən bir qədər kənara gedək. O isə qəti olaraq bildirdi ki, evdən heç yana gedən deyil. Dedi ki, 20 il çadırlarda, yataqxanalarda, yarımçıq tikililərdə qalmaqdan bezmişdim. Xəcalət çəkirdim. İndi qəsəbədə məcburi köçkünlər üçün tikilmiş mənzildə rahat yaşayıram. Gülə-gülə dedi ki, lap Vazgen gələ, yenə də qəsəbəni tərk etməyəcəyik.

Bizi yola salıb evinə qayıtdı. Müharibə davam edirdi. Tez-tez dostumuzla əlaqə saxlayırdıq. Müharibənin başladığı ilk gündən Silahlı Qüvvələrimiz işğalçı orduya divan tutdu. Sentyabrın 28-də dostumuz bizə zəng vurub sevincindən az qalırdı ki, ağlasın. Dedi ki, eşitdiniz də, qəhrəman ordumuz Zəfər missiyasını bizim rayondan başladı. Hərbçilərimiz elə birinci gün erməniləri müharibəni başlamalarına peşman etdilər. Dünən – sentyabrın 27-də axşam rayonumuzun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri düşməndən azad edildi. Ordumuz Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndlərini, Ağdərə və Murovdağ istiqamətlərində yüksəklikləri də azad edib. Üstəlik, zarafatyana dedi ki, bəlkə işıqlarınız sönüb, sabah televiziyada baxarsınız. Müharibə olsa da, bizim işıqlarımız da yanır, suyumuz da gəlir. Vazgen (o, ermənilərin hamısına Vazgen deyirdi) bunu eşitsə, ürəyi partlayacaq.

...Müharibənin başa çatmasından il yarım sonra keçmiş tələbə yoldaşımız bizi yenə də yaşadığı qəsəbəyə dəvət etdi. Dedi ki, müharibə başlayan gün toyuna gəldiyiniz oğlumun uşağının, yəni nəvəmin ad günüdür. Zarafatyana dedi ki, qorxmayın, müharibəzad yoxdu. Budəfəki şənliyimiz yarımçıq qalmayacaq. Əsgər və zabitlərimiz ermənilərə necə divan tutublarsa, onlar gizləndikləri siçan deşiklərindən hələ də çıxa bilmirlər. Həm də çıxmayacaqlar. Gəlin, sizə rayonumuzda il yarım ərzində görülmüş işləri göstərim. Mat qalacaqsınız. Ondan sonra görəcəksiniz ki, rayonumuz necə sürətlə inkişaf edir...

Maşınımız Füzulinin Əhmədbəyli kəndinə çatanda "ev sahibi" dedi ki, işıqfordan sağa dönən kimi, "Zəfər yolu" başlayır. Bu yol bizi düz Şuşaya aparır. Qürurla dedi ki, bu yolun açılışında qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edib: "Hə, deyin görüm bu vaxta qədər Türk dünyasının ağsaqqalı hansı birinizin yaşadığı rayona gəlib? Hələ sizi Füzuli Beynəlxalq Hava Limanına aparsam, ağzınız açıq qalar. Heyif ki, oraya icazə ilə buraxırlar".




Sonra Füzuli rayon Diaqnostika Mərkəzinin yaxınlığından çəkilmiş səkkiz zolaqlı Füzuli – Şuşa yolunu göstərdi və dedi ki, bu yol Azərbaycanda yeganədir. İrəlidə bir dairə var. Oradan sola bir qol ayrılır. Həmin yol gələcəkdə bizi düz Naxçıvana qədər aparacaq: "Hələ bir-birindən cəlbedici körpüləri də görəcəksiniz. Bilirsiniz, möhtərəm Prezidentimizin və birinci xanımın rayonumuza hər gəlişi bizim üçün toy-bayramdır. Çünki hər dəfə gələndə rayon ərazisində yeni müəssisələrin açılışı edilir, digərlərinin isə təməli qoyulur. Keçən il oktyabrın 17- də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak etdilər. 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək". Həmsöhbətim üzünü bizə tutaraq, müəllim kimi izah edirdi. Dedi ki, hansı rayonda belə yenidənqurma işləri gedir? İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcək. Məhəllədə çoxfunksiyalı binalar da olacaq. Ümumilikdə, burada 2860 nəfərin yaşaması nəzərdə tutulur.

Dostumuzun sevinci yerə-göyə sığmırdı. Füzuli şəhərində Peşə Liseyinin və 180 çarpayılıq Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulduğunu da dedi. Dedi ki, işlərin belə sürətlə getməsi bizim rayonda məskunlaşma prosesinin gözləniləndən daha tez olacağından xəbər verir. Hələ bu harasıdır. İşğaldan azad olunan ərazilərimizdə ikinci ağıllı kənd də Füzuli şəhərinin yaxınlığındakı Dövlətyarlı kəndində inşa ediləcək. Təəssüf ki, oraya da icazə ilə buraxırlar. Yoxsa görərdiniz ki, buralarda hansı işlər görülür.

"Ev sahibi" bildirdi ki, daha bizim rayona tez-tez gələ bilməyəcəyinizə bəhanəniz qalmayacaq. Çünki Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib. Bu liman dünyada ən qısa müddətdə inşa edilən hava limanlarından biridir. Özü də beynəlxalq standartlara uyğun olaraq qurulub. İndi Füzuli keçmişdə gördüyünüz kimi deyil. Rayonumuzda beynəlxalq uçuşlar da həyata keçiriləcək. Yeniliklər təkcə bunlar deyil. Rayonun nəqliyyat və logistik infrastrukturunun formalaşdırılması istiqamətində də işlər intensiv şəkildə həyata keçirilir. Horadiz–Ağbənd dəmir yolu xətti, eləcə də Horadizlə Zəngilanı birləşdirəcək avtomobil yolu, o cümlədən Füzuli–Hadrut, Füzuli–Şuşa Zəfər yollarının inşa edilməsi də ondan xəbər verir ki, işğaldan azad edilmiş torpaqlarımız çox qısa zamanda bərpa və yenidənqurma mərhələsinə qədəm qoyub. İndi siz deyin, ermənilər, onların havadarları yanıb-yaxılmasınlar, neyləsinlər?

Füzuli rayonunda sürətlə aparılan bərpa-quruculuq işləri bizi heyrətə gətirmişdi. Buraya gəlişimizin səbəbini də unutmuşduq. İl yarım ərzində görülən işlər yaxın gələcəkdə işğaldan azad edilmiş ərazilərimizin cənnətə çevriləcəyindən xəbər verirdi. Bu gözəlliyə ermənilərin bir daha xələl gətirəcəyi qeyri-mümkündür. Dostumuzun dediyi kimi, onlar qorxularından hələ də gizləndikləri yerdən çıxmağa cürət etmirlər.

**Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 5 oktyabr.- S.7.